

**Şəkil**-Təbriz 1980-ci il: Solda Kazimi F.K.,sagda ADF Azərbaycan Ruznaməsinin redaktoru Ə.Əfgəmi-1982-ci ildə ADF mənsubu olduguna görə İran molla rejimi tərəfindən edam edilmişdir.

**İNQiLABLARDA KEÇƏN ÖMÜR**

Kazimi Firudin Kazım oglu 1932-ci ildə Bakı şəhərində anadan olub. 1937-ci ildə həyatının ilk sürgünü zamanı cəmi beş yaşı var idi. Sovet NKVD-si məmurlarının sərt nəzarəti ilə dustaq kimi sıraya düzüb, Bakı Dəniz limanında gəmilərə doldurularaq İranın Ənzəli limanına departasiya olunma səhnələri onun yaddaşında çox dumanlı qalıb. Söhbətlərində o günləri bir yuxu kimi xatırladıgını deyir.

Bir Azərbaycandan muhacir kimi sürgün olan ailə digər Azərbaycana da mühacir kimi qəbul edildi. Bu hadisələrin iştirakçıları xatırlayır ki, mühacirləri gətirən gəmi limana yan alanda Ənzəlidə bir xaos hakim idi. Tacirlər dükanlarını baglamış, şəhərdən çıxmış, şəhər əhalisi də qorxusundan bayıra çıxmırdı. Hamı agır faciəli hadisələrin baş verməsini gözləyirdi.

Təbrizə gəlmiş ailə az bir müddətdən sonra atasını itirdi. Başsız qalan ailə Təbrizin agır illərində ayaqda qalmaq üçün çox əziyyətlər çəkməli oldu.Təbrizdə keçirilən uşaqlıq xatirələri, agır keçən illər və böyük çətinləklər insanı nece vaxtından əvvəl böyüməyə məcbur etdiyini göstərir. Ancaq, o zaman Azərbaycanda hamının vəziyyəti agır idi. İkinci dünya müharibəsi başlamış, Sovet qoşunları İrana daxil olmuş, İran şahı Rza pəhləvi qaçmış, iqtisadiyyat çökmüş, sabaha ümidlər də itmişdi. Hər kəs başını saxlamagın dərdində idi.

S.C.Pişəvəri Azərbaycanda Milli Hökuməti elan edəndə Firudinin artıq 13-14 yaşı var idi. Hər gün səhər tezdən Azərbaycan Ruznaməsinin mətbəəsinə gedərik yeni çapdan çıxmış qazetləri alır və şəhər meydanında satırdı. Bu günlərini qürürla xatırlayan Firudin Kazimi kiçik yaşlarda olmasına baxmayaraq mənə etibar və etimad edirdilər deyə xatırlayır. Bir gün qəzetin redaktoru məsləhət gördü ki, "min Təbriz-Culfa qatarına və qəzetləri paylaya-paylaya get culfaya və həmin qatarla da geri qayıt". Firudin belə də etdi. Hər gün Təbriz-Culfa qatarının müsafiri oldu.

Milli hökumətin bir ili müddətində yaddan çıxmayan xatirələr, Təbrizin Saat qabagında mitinqlər, Azərbaycanın görkəmli şəxsiyyətlənin çıxışları, millət bagında Milli flarmoniyanın keçirdiyi konsertlər, Milli hökumətin Fədailər qoşunun fəxri keçidləri onun sonrakı həyatına böyük bir iz buraxdı.

1946-cı ilin dekabr ayında Milli Hökümətin xəyanətlə devrilməsi nəticəsində Pəhləvi rejimi repressiyalara başladı. ADF ilə əməkdaşlıq və milli hökumətə xidmətlərə görə İran dövləti gənc qadını və onun 14 yaşlı oglunu həbs etdi. Onları da minlərlə digər Azərbaycanlı kimi edam edə bilərdilər. Firudin həddi-buluga çatmadıgına görə, anası isə Bakılı qızı olması səbəbindən edam edilmədilər və sürgün olundilar. Ailə ikinci dəfə sürgünə göndərildi. Gənc qadın 14 yaşlı oglu ilə

ikinci dəfə, bu səfət İranın cənubunda yerləşən Kaşan şəhərinə sürgün edildi. Dogma insanlardan, yaxınlardan uzaqda, fars mədəni mühiti ilə ilk tanışlıq da məhz burada baş verir. Bu sürgün Müsəddiqin islahatlara başlaması tarixinə qədər davam etdi.

Bu kiçik ailənin 1951-53-cü illərdə həyatı ölkənin siyasi həyatı kimi qaynar keçdi. Artıq 20 yaşını keçmiş gənc Firudin Tehrana qayıtmış, orada olan çox saylı azərbaycan ziyalıları ilə, tacirlər və iş adamları ilə münasibət qurmuş və cəmiyyətdə özünə yer etmişdi. Demokratik düşüncənin təhlükəli olması və hər an tutulmaq və edam edilmək təhlikəsi qalırdı. İran pəhləvi rejimində ən təhlükəli hərəkat milli hərəkat idi. Milli düşüncəli insanlar daim təqib altında idi. 1946-cı ilin represiyaları hələ də unudulmamışdı.

1953-cü illərin sonlarında ölkənin siyasi vəziyyəti agırlaşır və Müsəddiqin devrilməsi ilə represiyyalar yenidən başlanır. Gənc Firudin bakılı anasının təkidi ilə qaçaqçılarla əlaqə saxlayaraq Sovet Azərbaycanına gəlmək planlaşdırır. İranın bütün qonşu ölkələri ilə sərhədləri açıq idi, yalnız "Şurəvi" sərhədindən başqa. Bu sərhədi keçmək təhlükəli idi. Əvvəla, bu ailəyə sürgündən sonar cənubi Azərbaycan şəhərlərində yaşamaq icazəsi verilməmişdi və onların sovet sərhədinə qədər gəlməsi üçün xüsusi "hekayə" hazırlamaq lazım idi.

SSSRİ ilə İran sərhədini qaçaq keçərkən özü yaşında olan bir neçə gənclə tanış olur. Mühacirətdən sonrakı həyatında bu insanlarla əlaqəsini davam etdirən Firudin Kazimi ADF-nin mübariz üzvləri doctor Pənahi və Əkrəm Bijə ilə dastluqları sona qədər davam edir. ADF sıralarında S.C.Pişəvəri, Qulam Yəhya, Mirqasım Çeşmazər, Əmirəli Lahuridi, Ənuşirəvan İbrahimi kimi siyasi rəhbərlərlə çiyin-çiyinə fəaliyyət göstərdiyinin qürurunu daim dilinə gətirmiş, Birya, Balaş Azəroglu, Söhrab Tahir, Əli Tudə və yüzlərcə ADF-nin qiymətli kadrları haqqında iftixarla söhbətlər edirdi.

Sovet Azərbaycanında yeni bir mühacirət başlandı. Firudinin anası bakılı qızı olsa da ailəni Bakıya buraxmırlar və Azərbaycanın o zaman üçün ucqar rayonlarından hesab edilən Şamxora (Şəmkir) göndərirlər.

İkinci Dünya müharibəsinin yaralarını sarıyan ölkədə tədricən həyat qaydasına düşür və Firudin seçim qarşısında qalır. Ya oxuyub təhsil almalı, yada işləyib ailəsini saxlamalı idi. Siyasi fəaliyyətini bütün hallarda davam etdirəcəkdi.

1958-ci ildə Bakı şəhərində, təsədüfən mübariz firqəçilərdən olan Əkrəm Bijə ilə rastlaşır. Əkrəm Bijə Firudinin firqə nəşriyyatında fəaliyyətindən xəbərdar oldugu üçün ADF-nəşriyyatında ona ehtiyac oldugunu bildirir və onlar birlikdə, o zaman Azərbaycan Ruznaməsinin baş redaktoru olan Pənahi Makulinin yanına gəlirlər. Həmin görüşün sabahından başlayaraq Firudin Azərbaycan Ruznaməsinin mətbəəsində işə başlayır. Bu zaman artıq, Firidun Muganın fədai başçılarından olan Məşədi İbrahim Cəlilvəndin qızı ilə ailə qurmuş və gələcəyin mübariz firqəçilərindən biri bu ailədə dünyaya gəlmişdi. ADF-nin siyasi mətbuatında fəaliyyət 1979-cu ilə qədər davam edir.

1979-cu ilin fevralında, İrandakı inqilabi hərəkatın qələbəsi ilə artıq iyun ayında Firudin ADF rəhbərləri ilə birlikdə Təbriz şəhərində idi. ADF rəhbərliyinin tapşırıgı və mühacirətdən qayıtmış bir qrup Firqə rəhbərləri ilə birlikdə yenidən Təbrizdə siyasi fəaliyyəti qurmaq və Azərbaycan Ruznaməsinin orada nəşr edilməsini təşkil etmək lazım idi.

1981-ci ilin sonlarında ADF mətbutının nəşri dayandırıldı və bir neçə Aydan sonar təmamilə qadagan edildi. 1982-ci ildən İran İslam Respublikası ADF rəhbərlərini həbs edir və az müddətdən

sonar da onları edam edir. Firidun ADF rəhbərlərinin kütləvi həbslərindən bir ay qabaq məzuniyyətə göndərildiyindən həbsdən yaxasını qurtara bilir. Lakin beynəlxalq təşkilatlar, Sovet dövlət qurumları, ictimai birliklərin bu repressiyalara biganəliyi onu dəhşətə gətirirdi. Hər gün xəbərləri izləyir ki, Azərbaycan Demokratlarını müdafiə edəcək bir bəyanat eşidsin. Azərbaycan demoktratlarını müdafiə edən olmur. İran İslam respublikasının irticacı mahiyyəti üzə çıxdıqca edamların sayı artırdı. ADF rəhbərlərini, Azərbaycan Ruznamızinin redaktorlarını və ümumiyyətlə Azərbaycan Demokrat Firqəsi ilə əlaqəsi olan şəxslərin hamısı təqib olunmaga başlanır və İranda fəaliyyət göstərən müxtəlif siyasi təşkilatlardan fərqli olaraq ADF üzvləri edam edilir. O illərdə qardaşı şəhid edilən ADF-nin fədəkar üzvü Abdulla Amir Haşimi Cavanşir gizli fəaliyyət göstərdyi üçün təqiblərdən yaxasını qurtara bilir və baş vermis repressiyaların canlı şahidi olmuşdu.

1979-1982-ci illərdə İranın mövcud olan çox saylı partiyaları arasında ən demoktarik və humanist siyasi təşkilat olan Azərbaycan Demokrat Firqəsini radikalizmdə və ölkəyə xəyanətdə iddiam edərək çox qiymətli ziyalılarımızı edam etdilər. ADF olaraq o zaman SSRİ dövlətinin dəstəyinə ümid edilsə də sovet hakimiyyəti Firqə rəhbərlərini müdafiə etmədi və qansız rejimin edam hökmünə göz yumdu. Baxmayaraq ki, SSRİ səfirliyinin bir telefon zənginə edamları dayandıra bilərdilər.

Firudin Kazimi bu təqiblərdən qurtara bilməsini bir təsədüf hesab edir və şəhid olmuş firqə yoldaşlarını heç bir zaman unutmamışdı. Ən xoş günlərində o fədəkar insanları uşaqlarına, gənclərə nümunə göstərmişdir. 2010-cu ildə Firudinin uzun illərdən sonra edamdan onun kimi təsədüfən qartara bilmiş Cavanşir ilə Bakı şəhərində görüşü İran irticasına meydan oxuyan iki yaşlı insanın təntənəsi idi.

Firudinin 1983-cü ildən yeni mühacirət illəri başlayır. Bu mühacirət illərində də Azərbaycan Ruznaməsinin nəşri və təbligi ilə məşgul olur. S.C.Pişəvəri haqqında xatirələrini soruşanda təvazokarlıqla deyirdi: O zaman mən uşaq idim. Nə baş verdiyini çox da anlamırdım. Ancaq Azərbaycanın qızılbaş fədai ordusi nümayiş zamanı keçid edərkən, yuxarı kürsüdə dayanan S.C.Pişəvərinin böyük bir lider oldugunu görür və qürür hissi keçirirdik. Onun şəxsiyyəti bizim üçün ilham mənbəyi idi.

Bu gün Firudin Kazimi Güney Azərbaycanda baş vermis üç inqilabi hərəkatın canlı şahidi və iştirakçısı olaraq hələ də cənubun milli azadlıq fədaisidir. Həyatı boyu bir gün də olsa Güney Azərbaycanda milli hakimiyyətin qurulmasına ümüdini itirməyib. O, xalq yazıçısı Mirzə İbrahimovla hələ Təbriz şəhərində olarkən tanışlıgı haqqında, “Vətən ugrunda” qəzetinin yayımı ilə əlaqədar xatirələrini tez-tez danışar və yaxınlarına hər dəfə deyir: - o “Gələcək gün” mütləq bir gün gələcək.